*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 441-447*

https://doi.org/10.62837/2025.7.441

**MƏMMƏDOVA GÜNAY RÜSTƏM QIZI**
Lənkəran Dövlət
Universitetinin Xarici Dillər kafedrasnın dissertantı
e-mail:
gunay.mammadova685@gmail.com

# "KİŞİ YAZI ÜSLUBU" ANLAYIŞI: CEK LONDON ƏSƏRLƏRİNDƏ ƏDƏBİ ANALİZ

**XÜLASƏ**

Cek Londonun yaradıcılığı Amerika ədəbiyyatında özünəməxsus mövqe tutur və aydın şəkildə ifadə olunan "kişiyə məxsus üslub"u ilə seçilir. Onun *Şimal hekayələri* toplusu dostluq, dözüm və yaşamaq iradəsi kimi mövzuları ön plana çıxararaq kişi kimliyini ən ağır sınaqlar qarşısında təsvir edir. *Meksikalı* əsərində qəhrəman Rivera sükut və qətiyyət vasitəsilə mənəvi möhkəmliyi təcəssüm etdirir; bu xüsusiyyətlər onun peşəkar boksçu üzərindəki qələbəsini həm inandırıcı, həm də simvolik edir. Eyni şəkildə, *Həyat eşqi* əsərində ölüm-dirim qarşıdurmaları təsvir olunur: bir obraz sağ qalmaq üçün dostunu satır, digəri isə sədaqəti qorumaq naminə maddi mənfəətdən imtina edir. Bu əsərlərdə London güc, sədaqət və etik münaqişələri araşdıraraq, həm mövcud, həm də tənqidi baxımdan mədəniyyətə hopmuş kişi kimliyi anlayışını ədəbiyyat diskursunda qurur.

**Açar sözləri: üslub, obraz, güc, ədəbiyyat**

Ədəbi yaradıcılıqda üslubun seçilməsi xüsusi əhəmiyyətə malikdir. Qələm ustasının seçdiyi təhkiyə üslubu əsərin ruhunu, ab-havasını lazımı şəkildə yaratmağa, qəhrəmanların xarakterizə edilməsində, tarixi dövrün xüsusiyyətlərinin açıqlanmasında, bir sözlə – əsərin əsas ideyasının açıqlanmasında müstəsna rol oynayır. Əsərdə müəllifin obrazı daim duyulur və onun mövqeyi, təsvir etdiyi hadisələrə münasibəti özünü bu və ya digər şəkildə üzə çıxır, ifadə olunur. Yəni, əsəri oxuyarkən, artıq müəllifin şəxsiyyəti, həyat mövqeyi haqqında oxucuda müəyyən bir fikir formalaşır. Və təbii ki, müəllifdən söz açdıqda, bir qayda olaraq onun kişi yaxud qadın olduğu hiss olunur. [3, 49]Amerikan yazıçısı Cek Londonun əsərləri deyilənlərə əyani sübutdur. Məlum olduğu kimi, Cek London çox çətin, keşməkeşli ömür yaşayıb və keçdiyi ağır həyat yolu onun dünyagörüşünə, yaradıcılıq mövqeyin.;;ə xüsusi təsir göstərmişdi. Təsadüfi deyil ki, Cek Londonun qəhrəmanları da mətin, daxili qüvvəyə malik, mərd insanlardır. Cek Londonun iki hekayəsinin – "Meksikalı" və "Həyat eşqi" təhlili "kişi" üslubunun özünü necə biruzə verməsini aydın şəkildə göstərir. Ümumiyyətlə, ədəbiyyatşünaslıqda üslub problemi mühüm tədqiqat mövzularından biri kimi çıxış edir. Müxtəlif dövrlərdə yazıçının fərdi üslubu

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 441-447*

ilə bədii ənənələrin vəhdəti, həmçinin kişi və qadın yazıçıların təhkiyə fərqlilikləri diqqət mərkəzində olmuşdur. Belə bir müqayisə müəllifin mətnə yanaşma tərzini, dil və üslub seçimindəki prioritetlərini daha aydın göstərir. Bu baxımdan, Cek London yaradıcılığı həm Amerika realizmi, həm də romantik ənənənin təsirini özündə ehtiva etməklə, kişi üslubunun təzahür formalarını araşdırmaq üçün zəngin material təqdim edir.Londonun yaradıcılığına nəzər saldıqda, onun təsvir etdiyi mühitin əsasən sərt həyat sınaqları, təbiətlə insanın mübarizəsi, inqilabçıların taleyi və müstəqillik uğrunda mübarizə kimi mövzular ətrafında cəmləşdiyi görünür. Bu mövzular isə təbii olaraq kişi qəhrəmanların xarakterində öz ifadəsini tapır və müəllifin seçdiyi üslub da bu xarakterlərin təbiətinə uyğun olaraq sərtlik, qısalıq və lakoniklik üzərində qurulur. Beləliklə, Londonun yaradıcılıq yolu yalnız bir yazıçının fərdi üslubunun deyil, həm də bütövlükdə Amerika ədəbiyyatında kişi yazı manerasının necə formalaşdığını göstərən əhəmiyyətli nümunədir.

"Meksikalı" hekayəsinin baş qəhrəmanı Rivera müəllifin təbirincə desək "hamı üçün bir müəmma idi". [1, 27] Cek London öz qəhrəmanını təsvir edərkən, onun zahiri görünüşünə nisbətən az diqqət ayırır. Bununla yanaşı, yazıçı dönə-dönə Riveranın həm də "böyük vətənpərvər" də adlandırır və bu artıq yazıçının münasibətini müəyyən dərəcədə açıqlayır. Ümumiyyətlə, "Meksikalı" əsərinin üslubu öz lakonikliyi ilə seçilir. Yəni, burada emosiyaların təsvirinə az yer verilir və qəhrəmanı səciyyələndirən cəhətlər sanki gözlənilmədən, bir iki sözlə bildirilir. Lakin, bu xüsusiyyət mətnin ekspressivliyini azaltmır, əksinə gücləndirir. Daha bir cəhət- təhlil edilən hekayələrdə qadın obrazları demək olar ki yoxdur, olan qadın obrazları isə əsərin süjetində əhəmiyyətli rol oynamır. [3, 38] Bu müəllifin qadın obrazlarına biganə olmasından irəli gəlmir. Sadəcə, Cek Londonun təsvir etdiyi mühit sırf "kişi" mühitidir və burada qaldırılan problemlər məhz kişilərin həll edə bildiyi problemlərdir. Əsərin baş qəhrəmanı Dias rejiminə qarşı, inqilab uğrunda mübarizə aparır. Bu gənc az və qısa danışır, və inqilab yolunda hər işi görməyə hazırdır. Cek London inqilabçıların işlədiyi şəraiti uzun-uzadı təsvir etmir və onların əsas çətinliyini- pulun olmamasını sanki ötəri qeyd edir, halbuki hekayənin süjeti həmin problem üzərində qurulub. Burada diqqətəlayiq məqam ondan ibarətdir ki, yazıçının qələmə aldığı inqilabçıların mübarizəsi yalnız maddi çətinliklər fonunda deyil, həm də mənəvi dəyərlərin qorunması baxımından təqdim olunur. Müəllif oxucuya göstərir ki, pul çatışmazlığı onların mübarizəsini zəiflətmir, əksinə gücləndirir, çünki ideallar və azadlıq uğrunda mübarizə hər cür maneədən üstün tutulur. Bu, əsərin ictimai-siyasi kontekstini daha da gücləndirir və müəllifin ideoloji mövqeyini açıq şəkildə üzə çıxarır.

Cek Londonu ilk növbədə Rivera maraqlandırır və qəhrəmanın Dias rejiminə nifrəti onun uşaqlıq xatirələri ilə açıqlanır. Yazıçı qeyd edir ki, Riveranın davranış tərzi, onun öz fikirlərini müxtəsər söyləməsi yada heç danışmaması hamını çaşqın qoyurdu. Yəni, Cek London Riveranı təsvir edərkən, qəhrəmanın nitq üslubuna yaxın

olan vasitələrlə təsvir edir, bu da əsərin ruhunun ifadə olunmasında, süjetin açıqlamasında özünü doğrudur. Hekayədə təsvir edilən hadisələr "sərt" üslubda göstərilir və reallığı aydınlıqla əks etdirir. Rivera özü heç kəslə artıq söhbət eləmirdi, əməkdaşların da onun sorğu-suala çəkməyə cürəti çatmırdı. Yəni, cansız görünən Riveranın zəhmi ağır idi və Cek London onun bu cəhətini vasitəli şəkildə üzə çıxarır. Müəllif Riveraya iş yoldaşlarının münasibətini bir kəlmə ilə- "Onlar onu sevə bilmirdilər" kəlməsi ilə açıqlayır. Və eyni zamanda dönə-dönə bu cümləni təkrar edir- onun [Riveranın] yalnız inqilab haqqında söhbət gedəndə parıldamağa başlayırdı. Göründüyü kimi, Riveranın portreti, siması qəhrəmanın xasiyyətinə uyğun qısa və konkret şəkildə açıqlanır. Bu yanaşma yazıçının psixoloji təsvir ustalığını nümayiş etdirir. Çünki müəllif qəhrəmanı geniş və ətraflı portretlə təqdim etmək əvəzinə, az sözlərlə onun mənəvi gücünü və daxili aləmini canlandırır. Bu da oxucuda daha güclü emosional təsir oyadır. Beləliklə, oxucu qəhrəman haqqında daha çox düşünməyə vadar edilir, onun hərəkətlərini və qərarlarını təhlil etməyə sövq olunur. Rivera inqilab naminə, üsyançıları silahla təmin etməkdən ötrü məşhur boksçu ilə döyüşməyi qərara alır. Cek London çox maraqlı bir təzada müraciət edir- Rivera zahirən nə qədər cansız görünsə də daxilən çox güclüdür. Burada bir maraqlı məqam diqqəti cəlb edir- Rivera obrazı nə qədər qısa və yığcam verilirsə, onun boksda rəqibi olan Uordun obrazı daha geniş şəkildə təsvir edilir. Uordu ilk dəfə təsvir edəndə yazıçı deyir ki "Bu çox təntənəli tərtib olunmuş bir gəliş idi". Yəni, Uordun "səhnəyə çıxması" bir tamaşa kimi tərtib edilmişdi. Və burada başqa bir təzad- Rivera inqilab uğrunda döyüşdüyü halda, onun rəqibi döyüşdən pul qazanır və bunu etiraf etməkdən çəkinmir. Professional boksçunun meneceri ilə apardığı maliyyə söhbətləri C.London tərəfindən sanki daha cəld, sürətlə göstərilir və bu da süjetin üslubunun əhəmiyyətini bir daha vurğulayır. Denni Uordu təsvir edərkən nə qədər geniş epitetlər işlənirsə, Riveranın bir kəlməsi –"pulların hamısı qalib gələnin olsun" sözləri sanki kəskin şəkildə dayandırılır və oxucu çox qeyri-adi hisslər keçirir. [5, 232] Və dərhal sonra Uordun–"mən sənin başını partlatmalı oldum" sözləri sanki qarşıda gələn döyüşün nə qədər gərgin olmasını vurğulayır və oxucu özü də həyəcan keçirir, səbirsizliklə döyüşü gözləyir. Uord "mən" şəxs əvəzliyin i daim işlədir, Riveranın dilində isə "mən" sözü demək olar ki, işlənmir. Bu həmçinin üslubun düzgün seçilməsinin göstəricidir. Ümumiyyətlə, Cek London öz əsərində romantik ədəbiyyata xas olan vasitələrdən istifadə edir. Riveranın keçmişi haqqında məlumatın olmaması, onun sirrli davranışı, Uorda atdığı "soyuq, nifrətli" baxış sırf romantik səciyyə daşıyır, bu da təsadüfi deyil, çünki C.London əsasən romantik üslubda yazıb-yaradıb. Əsərin sonunda London yenə də "gözlənilməzlik" üsuluna müraciət edir. "Rivera rinqdə tək qalmışdı. Qorxunc Denny arxası üstündə yerə uzanmışdı". [1, 52] Burada yenədə təzaddan istifadə edir- Rivera ayaq üstə - Denny arxası üstə". Bu həmçinin romantik tipli bir vasitədir və C.London romantik ədəbiyyatın nailiyyətlərindən, tipik vasitələrindən məharətlə istifadə edir.Göründüyü kimi, Cek

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 441-447*

Londonun "Meksikalı" əsəri sırf "kişi" nəsrinə xas olan üslubda yaranıb. Əsərin həm məzmunu, həm süjeti, həm nitq xüsusiyyətləri onun "kişi" nəsrinin parlaq nümunəsi olmasını göstərir.

Cek Londonun başqa əsəri – "Həyat eşqi" həmçinin "kişi" dəst-xətti baxımından çox maraqlıdır. Məlum olduğu kimi, C.Londonun "Şimal hekayələri" toplusu oxucular tərəfindən maraqla qarşılanmışdı və çox populyar idi. Bu topluya daxil edilən əsərlərin bir çoxunda Şimal təbiəti təsvirləri diqqəti cəlb. Həmin təsvirlərdə "sərt gözəllik" ifadəsinin mənası tam aydınlığı ilə açıqlanır. Qarlı, buzlu, ağ səhra kimi görünən Şimal təbiəti nə qədər gözəl görünsə də, bir o qədər qorxulu görünür."Həyat eşqi" hekayəsində artıq ilk səhifələrdən Şimalın sərt təbiəti təsvir olunur və həmin təbiət təsvirləri artıq öz vahiməsi ilə oxucuya çox ağır təəssürat bağışlayır. Əsərdə iki qəhrəman təsvir olunur, bunlar sanki təbiətin özü ilə mübarizə aparır və həmin mübarizə artıq hər ikisinin daxili durumunu, mənəviyyatını aşıq-aşkar göstərir. Yazıçı qəhrəmanlarının təsvirində ən təsirli və eyni zamanda sərt ifadələrdən istifadə edir. Bu cür yanaşma əsərdə gərginliyi gücləndirir və iki yolçunun taqətdən düşdüyünü təsdiq edir.

"Həyat eşqi" hekayəsində yazıçı fərqli "təhkiyə ritmindən" istifadə edib. "Meksikalı" əsərindən fərqli olaraq, "Həyat eşqi" hekayəsində heç bir müəmma yoxdur. Artıq ilk sətirlərdən məlumdur ki, iki nəfər ağır təbiət şəraitində yol gedir və həmin yol qısa və dəqiq cümlələrlə təsvir olunur. Qəhrəmanların nitqi həmçinin qısadır, bu da məntiqidir, çünki onların düşdüyü vəziyyətdə uzun-uzadı söhbət yersizdir. Burada diqqət çəkən başqa bir cəhət ondan ibarətdir ki, müəllif qəhrəmanların psixoloji halını əsasən onların davranışları ilə göstərir. Təbiətlə insanın mübarizəsi fonunda bədii təsvir vasitələri sadə olsa da, çox təsirlidir. London qəhrəmanlarını danışdırmaqla deyil, onları çətin şəraitdə sınağa çəkərək oxucuya tanıdır. Bu isə onun "kişi" nəsrinin başlıca əlamətidir.Bu hekayədə daxili monoloqlara daha çox yer verilir. Məsələn, Riveranın psixolojı portreti daha çox həmkarlarının sözləri ilə "çəkildiyi" halda, ikinci hekayədə hər iki personaj öz fikrini edir və yazıçı onların düşüncələrini nə hamarlayır, nə də gizlədir. Ümumiyyətlə, Cek London ədəbiyyatda "sərt" üslub yazıçısı kimi tanınır, bu da onun yaradıcılığında məhz "kişi" problemlərinə müraciət etməsi ilə bağlıdır. [2, 43]Onu da qeyd etmək lazımdır ki, Rivera müsbət qəhrəmandır, iki dostun portləri isə onların əməllərindən bilinir. "Onlar başlarını aşağı salıb, gözlərini yerə dikərək yeriyirdilər" – bu qısa cümlə personajların hansı halda olduğunu dəqiq göstərir və müəllif geniş izahlara ehtiyac duymur. Əslində, bu tip qısa, lakin məzmunlu frazalar Londonun yazı üslubunu səciyyələndirir və oxucunun təxəyyülünə geniş imkan yaradır. Yəni, yazıçı qəhrəmanların daxili vəziyyətini çox izah etmir, sadəcə bir detalı qeyd etməklə oxucunun onu hiss etməsini təmin edir. Daha sonra qəhrəmanların biri yol yoldaşının xəyanəti ilə üzləşir. C.London yenə də burada heç geniş şərhlər vermir, o sanki baş verən faktı təsdiq edir və öz münasibətini açıq şəkildə bildirmir və bununla nəticə

çıxarmağı oxucunun ixtiyarına verir. Bu hekayədə cümlələr qısa, lakin məzmun baxımından çox dərindir. Hekayədə əslində, yalnız qəhrəmana əziyyət verən aclıq hissi bilavasitə qeyd edilir bu da təsadüfi deyil, çünki yazıçı aclıq hissinin ona əzab verən bütün digər hisslərə üstün gəlirdi.Qəhrəmanın qoca canavarla döyüşü bir daha həyat eşqinin gücünü göstərir. Müəyyən mənada bu hekayəni bütöv bir daxili monoloq hesab etmək mümkündür. Yolçu ölüm haqında düşünür, buna baxmayaraq, az-acıq imkan olan kimi, yolunu davam edir. C.London yolçunun çəkdiyi iztirabları təsvir edərkən, rəngarəng metaforalardan istifadə etmir. O yalnız insan təbiətində mübarizə qüvvəsinin necə güclü olmasını sübut edir. Yolçunun başına gələn hadisə hər kişinin başına gələn hadisədir və qəhrəman çətin sınqdan əsl kişi kimi çıxır, onu darda qoyub gedən və yolda ölən yol yoldaşının topladığı qızılı götürmür. Bu epizodda kişi mentallığı, düşüncə tərzi, nəhayət, kişi hərəkəti göstərilir. Deyilən epizodlar qəhrəmanın əsl kişi simalı şəxs olduğunu təsdiq edir. Bu hekayədə C.London yenədə təzadlı bir durumu göstərir. Mübarizədə olan insan, çətinliklərə üstün gəlmiş şəxs xilas olunan kimi bir zəiflik göstərir- o artıq ac qalmaqdan qorxur və onu xilas edən gəmidə gizlicə çörək gizlədir. [2, 45] Onun mübarizə aparmağa ehtiyacı yoxdur və o ancaq çörək, qida haqqında düşünür. C.London qəhrəmanının bu halına həm istehza, həm də təəssüf və mərhəmət hissi ilə yanaşır, çünki çəkdiyi əzablar bu insanda iz qoymaya bilməzdi. Beləliklə, yazıçının təsvir etdiyi təzadlar bir tərəfdən insanın möhkəm iradəsini, digər tərəfdən isə onun zəif tərəflərini ortaya çıxarır. Bu, London yaradıcılığının əsas xüsusiyyətidir: qəhrəmanlar mütləq ideal obrazlar deyil, real və həyatın çətinlikləri ilə sınanmış şəxslərdir.Beləliklə, təqdim edilən təhlil "sərt romantik" adlanan Cek Londonun əsərlərində sırf "kişi dəst xətti" ilə yazılmasını təsdiq edir.

Nəticə etibarilə, Cek Londonun yaradıcılığında müşahidə olunan "kişi" yazı üslubu həm məzmun, həm də forma baxımından xarakterik xüsusiyyətlər daşıyır. Yazıçının əsərlərində qəhrəmanların xarakterləri, davranışları və həyatla mübarizələri əksər hallarda kişi dünyagörüşünün təsiri ilə formalaşır. "Meksikalı" və "Həyat eşqi" hekayələrində bu üslubun özünü açıq şəkildə göstərməsi Londonun ədəbiyyatda sərt və lakonik təhkiyə texnikasını ustalıqla tətbiq etdiyini təsdiqləyir. Qəhrəmanların nitqi qısa və konkret, hadisələrin təsviri isə ekspressiv və emosiyaları sıxışdırmadan təqdim edilir, bu da əsərin dramatik yükünü artırır. Bundan əlavə, qadın obrazlarının minimal səviyyədə olması və onların süjetdə rolunun önəmli olmaması, Londonun təsvir etdiyi mühitin əsasən kişi fəaliyyətinə və problemlərinə yönəlməsini vurğulayır. Bu xüsusiyyətlər yazıçının həyat təcrübəsindən və dünyagörüşündən qaynaqlanır, eyni zamanda onun romantik ədəbiyyata xas olan vasitələrdən – sirr, təzad və gözlənilməzlikdən istifadəsini də özündə əks etdirir.

Beləliklə, Cek Londonun əsərləri təkcə "sərt romantik" üslubun deyil, həm də ədəbiyyatda kişi təhkiyəsinin parlaq nümunəsi kimi qiymətləndirilə bilər. Onun yaradıcılığı oxucuda qəhrəmanlıq, mübarizə və daxili güc anlayışlarını

formalaşdırmaqla yanaşı, ədəbiyyatda cinsiyyət yönümlü yazı üslubunun xüsusi əhəmiyyətini də ön plana çıxarır. Nəticədə, Londonun əsərlərində kişi yazı üslubu yalnız ədəbi texniki vasitə kimi deyil, həm də sosial və mənəvi dəyərləri əks etdirən bir vasitə kimi çıxış edir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Cek London Seçilmiş əsərləri "Öndər" nəşriyyatı, Bakı, 2005, 510 s.
2. Süleymanova T.T. Dünya ədəbiyyatı tarixi [XX əsr] [Dərs vəsaiti]. Bakı, "Mütərcim", 2012.
3. Гафарова С.А. Понятие «женского»творчества. // Гендер и филология. Учебное пособие. Баку. «Мутарджим», 2009, 164 с.
4. Мамедханова Н.Дж. Литературные вдохновения. Баку, Мутарджим, 2014, 184 с.
5. Писатели США. [Краткие творческие биографии]. Москва, «Радуга»,1990.

**GUNAY RUSTAM MAMMADOVA**

## "THE CONCEPT OF A MASCULINE WRITING STYLE: A LITERARY ANALYSIS OF JACK LONDON'S WORKS"
## SUMMARY

Jack London's oeuvre occupies a distinctive position within American literature, distinguished by its pronounced articulation of a "masculine style." His collection *Northern Tales* foregrounds themes of friendship, endurance, and the will to survive, situating male identity within contexts of extreme adversity. In *The Mexican,* the protagonist Rivera exemplifies moral fortitude through silence and resilience, qualities that render his triumph over a professional boxer both credible and symbolic. Similarly, *Love of Life* dramatizes life-or-death predicaments in which one figure secures survival through betrayal, while another resists the temptation of material gain at the expense of loyalty. Across these works, London interrogates strength, loyalty, and ethical conflict, thereby constructing a literary discourse that both reflects and critiques culturally encoded notions of masculinity.

**Key words: style, character, power, literature**

## «ПОНЯТИЕ МУЖЕСТВЕННОГО СТИЛЯ ПИСЬМА: ДЖЕК ЛОНДОН КАК ПРИМЕР ЛИТЕРАТУРНОГО АНАЛИЗА»
## РЕЗЮМЕ

Творчество Джека Лондона занимает особое место в американской литературе и отличается ярко выраженным «мужественным стилем». Его

сборник *Северные рассказы* акцентирует внимание на темах дружбы, выносливости и воли к жизни, представляя мужскую идентичность в условиях крайнего испытания. В произведении *Мексиканец* главный герой Ривера воплощает нравственную стойкость через молчание и решимость; эти качества делают его победу над профессиональным боксёром одновременно убедительной и символичной. Аналогично, в рассказе *Любовь к жизни* разыгрываются ситуации на грани жизни и смерти: один персонаж предаёт друга ради выживания, другой же отказывается от материальной выгоды во имя верности. В этих произведениях Лондон исследует силу, верность и нравственные конфликты, формируя литературный дискурс, который как отражает, так и критически осмысляет культурно закреплённые представления о мужественности.

**Ключевые слова: стиль, характер, сила, литература**

**Rəyçi: fil.ü.f.dok.Tünzalə Süleymanova**